## Elmi işlər üzrə prorektor

## ELMİ-TƏDQİQATLARIN İDARƏ OLUNMASI DEPARTAMENTİ

**DİREKTOR**
Ə.e.d. prof. **Eldar Qarayev**
1 ştat vahidi

### Əqli mülkiyyətin inkişafı, qrant, patent və elmi ekspertiza şöbəsi

1. **Şöbə müdiri**: t.ü.f.d. ass. Aygün Kazımlı - 1 ştat vah.

2. Patentşünas: Mahmudova Rəna (dekret) - 1 ştat vah., İsmayılova Nailə - 1 ştat vah.

3. İş icraçısı: Leyla Məmmədova - 1 ştat vah.

### Elmimetrik araşdırma və elmi əməkdaşlıq şöbəsi

1. **Şöbə müdiri:** t.e.d., prof. Fatima Seyidbəyova - 1 ştat vah.

2. Koordinator (elm üzrə): t.ü.f.d., ass.Sevinc Muxtarova - 0,5 ştat vah., t.ü.f.d., dos. Sevinc Pənahova - 0,5 ştat vah.

### Simpozium, konfrans, startap və digər elmi tədbirlərin təşkili şöbəsi

1. **Şöbə müdiri:** t.e.d. dos. Müşviq Həsənov - 1 ştat vah.

2. Koordinator (elm üzrə): baş laborant Aytən Şıxəliyeva - 1 ştat vah.

3. Start-up (üzrə koordinator): t.ü.f.d., dos. Ayət Cəfərova - 0,5 ştat vah.

# 2024-cü il üçün elmimetrik araşdırma və beynəlxalq elmi əməkdaşlıq şöbəsinin iş planı

Azərbaycan Tibb Universiteti Jurnalının nüfuzunun qaldırılması, ATU əməkdaşlarının iurnalda məqalə çap edilməyə cəlb edilməsi, Jurnalın AAK siyahısına salınması

Digər universitetlərin elmi-tədqiqat laboratoriyaları ilə əməkdaşlığın qurulması, müştərək elmi-tədqiqatların aparılmasının təşkili

Aparıcı Q1-Q4 elmi nəşrlərdə yüksək impact faktorlu jurnallarda ATU-da aparılan elmi-tədqiqat işlərinin nəşr olunmasının dəstəklənməsi

“Clarivate” ilə əmakdaşlıq və onların ATU-da vebinar və seminarlar keçirilməsini təşfiq edilməsi. İndeksli jurnallarda çap olunmaq üçün elmi işlərə qoyulan qaydalar ilə ATU əmakdaşlarına tövsiyyələrin verilməsi

Xarici tərəfdaşlar ilə müştərək elmi-tədqiqat işlərinin aparılması üçün əməkdaşlığın genişləndirilməsi

DAAD, Erasmus, Fullbright və başqa proqramlar ilə tanışlıq, ATU əməkdaşlarının və tələbələrinin xaricdə elmi təcrübə keçməsi üçün istiqamətləndirilməsi, məlumatlandırılması

Elmi əsərlərdə plagiatın qarşısın alınması barəsində, elmi məqalələrin hazırlanmasına qarşı qoyulan müasir tələblər ilə əməkdaşların vebinar vasitəsilə məlumatlandırılması

# Əqli mülkiyyətin inkişafı, qrant, patent və elmi ekspertiza şöbəsi şöbəsinin 2024-cü il iş planı

- Cari müsabiqə, beynəlxalq və yerli qrant proqramları haqqında məlumatların axtarışı, təhlili və seçilməsi və əməkdaşlara təklif edilməsi, o cümlədən qrantlar üçün layihələrin hazırlanması ilə bağlı universitet əməkdaşlarına məsləhətlərin verilməsi, qrant verən təşkilatlara hesabatların təqdim edilməsi

- Universitet əməkdaşları və tələbələr arasında elmi təbliğin gücləndirilməsi, bu məqsədlə müsabiqələrin və olimpiadaların aparılması, həvəsləndirici mükafatların verilməsi, mütamadi vebinarların keçirilməsi

- Potensial elmi layihələrin hazırlanması və həyata keçirilməsi üçün məsləhət xidmətlərinin genişləndirilməsi

- Elmi nəşrlərin, əməkdaşların hazırladıqları dərslik və dərs vəsaitlərinin elektron variantda universitet kitabxanasına təhvil verilməsinə nəzarət

ATU -ya məxsus patentlərin ölkə, Avrasiya və beynəlxalq patent bazalarında yerləşdirilməsi üçün mümkün imkanların dəyərləndirilməsi və Əqli Mülkiyyət Agentliyi ilə əməkdaşlıq etmək

ATU-nun tələbə və müəllim heyətinin əqli mülkiyyət siyasəti üzrə biliklərinin artırılması məqsədi ilə müxtəlif tədbirlərin həyata keçirilməsi

Əqli Mülkiyyət Agentliyi tərəfindən təqdim edilmiş onlayn patent kursunun (WIPO Academy DL Courses) iştirakının təmini

Sifariş əsaslı tədqiqatların aparılması

# 2024-cü il üçün Simpozium, konfrans və digər elmi tədbirlərin təşkili şöbəsinin iş planı

Tədris ili ərzində planlaşdırılan konfrans, simpoziumlarin 6-ay öncədən hazırlanması. Təşkilatçı qurum, tərəfdaş qurumlar, tədbirin keçirilmə tarixi, keçirilmə yeri, iştirakçıların sayı, kateqoriyası,tədbirdən bəhrələnənlərin sayı, tədbirin statusu, xarici ölkələrin sayı, əcnəbi iştirakçıların sayının mütləq olaraq göstərilməsini təmin etmək.

Elmi tədqiqat işləri ilə bağlı yerli, respublika və beynəlxalq səviyyədə keçiriləcək tədbirlər (konfranslar, simpoziumlar, seminarlar, dəyirmi masalar, müsabiqələr, sərgilər və s.) barəsində universitet əməkdaşlarını məlumatlandırmaq və belə tədbirlərdə iştirak edəcək əməkdaşlara mümkün təşkilati köməklik göstərmək.

Keçiriləcək konfranslarda elmi ekspert qruplarının müəyyənləşdirilməsi.

Müştərək ölkədaxili və xarici beynəlxalq konqreslərin təşkil olunması.

- Regionlarda və paytaxtda təhsil alan orta məktəb şagirdləri üçün «Tibb tələbəsi seçimi necə aparılmalıdır?» mövzusunda elmi seminarların keçirilməsi
- Keçiriləcək tədbirlərin maliyyə dəstəyinin müyyənləşdirilməsində öncədən tender üçün sponsor paketinin təqdim edilməsi
- Tələbələrin elmi-tədqiqat işlərinin təşkili; Universitet konfranslarının, müsabiqələrinin, olimpiadalarının dəstəklənməsi və təşkili;
- Tələbələrin və gənc alimlərin  konfranslara və əhəmiyyətli elmi forumlara ezamiyyətlərinin rəsmiləşdirilməsi